**Ermәni vәhşiliyinin qurbanı** olan şәhid zabitimiz son mәnzilә yola salınıb / Azәrtac // Respublika. - 2020. - 25 noyabr. - **№ 246**. - S. 7.

Ermәni vәhşiliyinin növbәti qurbanı olan qәhrәman zabitimiz - Suqovuşan qәsәbәsindә minaya düşәrәk şәhidlik zirvәsinә ucalan korpus komandirinin müavini polkovnik Babәk Sәmidli noyabrın 24-dә Göyçay şәhәrindә son mәnzilә yola salınıb.

AZƏRTAC-ın bölgә müxbiri xәbәr verir ki, Şәhidlәr xiyabanında izdihamlı keçәn dәfn mәrasimindә şәhid polkovnikin yaxınları, rayon rәhbәrlәri, hәrbçilәr, ictimaiyyәtin nümayәndәlәri iştirak ediblәr.

Mәrasimdә Müdafiyә Nazirliyinin nümayәndәlәri, şәhidin döyüş yoldaşları Babәk Sәmidlinin Vәtәn qarşısındakı xidmәtlәrindәn, torpaqlarımızın ermәni işğalçılarından azad edilmәsi uğrunda şücaәtindәn, zabit bacarığından, döyüş yolundan danışıblar. Çıxışlarda Prezident, Müzәffәr Ali Baş Komandan İlham Əliyevin rәhbәrliyi ilә qısa vaxtda Azәrbaycan Silahlı Qüvvәlәrinin işğalçı Ermәnistan ordusu üzәrindә tarixi zәfәrindәn, bu qәlәbәdә Babәk kimi igid zabit vә әsgәrlәrin qәhrәmanlığından bәhs olunub.

Sonda korpus komandiri, general-mayor Hikmәt Hәsәnov şәhidin cәnazәsinin üzәrinә örtülәn üçrәngli bayrağımızı әbәdi saxlaması üçün onun oğluna tәqdim edib.